# Bir əlimizdə silah, bir əlimizdə qələm tutmalıyıq!

"Qarabağ" mövzusunun - yaşadığımız və artıq geridə qoyduğumuz ağrılı-acılı,qəmli-qüssəli 30 illik həsrətin bitişinin bir addımlığındayıq.

Bu gün cəbhədə, sözün əsl mənasında tarix yazan - Azərbaycanın şanlı Yeni tarix kitabını yazan ordumuzun şəninə çox nəğmələr - zəfər nəğmələri, dastanlar hələ bundan sonra yazılacaq, çox danışılacaq.

Bu gün biz gələcək nəsillərin tarix dərsliyindən qürurla,fəxarət hissi ilə oxuyacağı zəfər günlərini yaşayırıq. 90-cı illər nəsli olaraq biz ağlımız kəsəndən, tarix dərslərində kitab, dəftərlərimizin ön səhifəsinə yazılmış işğal tarixləri əzbərləmişik. Düşünəndə ki, yeni nəsillərin buna ehtiyacı olmayacaq, onların yaddaşlarına həkk edəcəkləri tarix "Zəfər tarixi" olacaq, insan qəribə bir həyəcan keçirir, bunu canlı yaşamaq isə həqiqətən möhtəşəm hisdir.

Gələcək nəsillər hər nə qədər zəfər tarixini - qələbə əldə etdiyimiz XXI əsrin 20 - ci ilinin möhtəşəm tarixini öyrənəcəksə də, biz onlara kökü XX əsrin əvvəllərindən də o yana gedən bədxah qonşularımızın bizə yaşatdığı, göstərdiyi xain və nankor xislətini heç vaxt unutdurmayacağıq. Əksinə keçmiş tarix kitablarımızı, düşmənin əsl simasını, daha doğrusu simasızlığını əks etdirən bədii ədəbiyyatı da onların dərs masasının üzərindən əskik etməyəcəyik. Əskik etməyəcəyik ki, onlar ata-babalarının tarix boyu "hər kimdir... yazıqdır" deyib əl tutduğu, zaman-zaman evimizə ayaq açıb, torpağımıza göz dikən, 30 ildir ki, ana-bacılarımızın gözünü yaşlı qoyub, son günədək özlərinin alçaq xislətindən əl çəkməyərək, yersiz torpaq iddiasında olan mənfur "qonşularımızı" tanısınlar, tanısınlar ki, bu mənfi xislət sahiblərini dünyaya tanıtdırsınlar.

Bədii ədəbiyyat real həyatı, gerçəkliyi obrazlı şəkildə əks etdirən incəsənətin, eləcə də elmin bir sahəsi olduğu kimi həyatımızın da ayrılmaz bir hissəsidir. Yaşanılan hər hadisə, hər gün istər acılı, istər nikbin, tarixə keçdiyi kimi öz reallığına bədii don geyindirərək ədəbiyyata və əbədiyyətə qovuşur.

XX əsrin əvvəllərindən başlayan, münaqişəyə çevrilmiş erməni - Azərbaycan münasibətləri tarix kitablarına yazıldığı kimi, ədəbiyyat da öz növbəsində tarixi hadisələrlə "öz prizmasından yanaşaraq" ona bədiilik, obrazlılıq qataraq öz səhifələrinə köçürmüşdür.

Müxtəlif vaxtlarda Azərbaycan şair və yazıçılarının qələmindən çıxmış bir çox bədii əsərlərdə "qonşularımızla" münasibət real həyat fonunda əks olunmuşdur.

Tarixiliyin və çağdaşlığın sıx vəhdəti, hadisənin aktuallığı, realist düşüncə tərzinin və mətnaltı mənanın çoxqatlılığı güclü olan C. Cabbarlının "1905-ci ildə" pyesi bəhs etdiyimiz mövzunun ən geniş inikasıdır. Yazıldığı və tamaşaya qoyulduğu gündən əsərin "milli münasibətləri qızışdıran", "siyasi istiqamətdən sapınan" pyes kimi dəyərləndirilməsinə baxmayaraq əsər tarixi həqiqət kitabına öz səhifəsini daxil edə bildi.

Cabbarlı mövzunu hərtərəfli öyrənmək üçün arxiv sənədlərini nəzərdən keçirmiş, Qarabağa, Şuşaya, Ağdama getmiş, qırğın iştirakçılarını və zərərçəkmişləri dinləmişdi.

1918-ci ilin qanlı mart günlərində ermənilərin Bakıda Azərbaycan türklərinə qarşı törətdikləri ağlasığmaz vəhşiliklərin , soyqırımın canlı şahidi olmuş sənətkar erməni xislətindəki hiyləgərliyin, xəyanətkarlığın ,fəndgirliyin, nankorluğun, barbarlığın, simasızlığın bütün təzahür formalarını açıq və ya üstüörtülü şəkildə "1905-ci ildə" tarixi dramında əks etdirmişdir.

Allahverdi, Sona, Nabat, Eyvaz, Gənc Baxşı- müsəlman türk aləmində geniş yayılmış bu adları pyesdə daşıyanlar XIX əsrin əvvəllərində törətdikləri xəyanətlərə görə İran və Türkiyə ərazisindən Qafqaza, xüsusilə Qarabağa sürgün edilmiş, adaptasiya dövrünü yüksək məharətlə keçmiş ermənilərin xələfləridir.

Tarixi ərazilərdən Qafqaza qovulmuşlar maddi və mənəvi boxçalarının kasadlığından yeni yaşayış yerlərinə əliboş gəlsələr də türklərin xeyirxahlığından və qonaqpərvərliyindən sui-istifadə edərək maddi və mənəvi sərvətlərimizdən nəinki barınmışlar hətta onları zaman keçdikcə mənimsəmiş, müqavimətə rast gəlmədikcə özününküləşdirmişlər. Azərbaycan ərazisinə səpələnən ermənilər yerli əhalinin rəğbətini qazanmaq üçün övladlarına türk adları qoyub, türk dilində danışır, türk həyat tərzinə və adət ənənələrinə yiyələnirdilər.

Qoca Baxşı milliyyətcə erməni olan Gənc Baxşını öz övladı kimi qəbul edir, ocağının başında ona yer ayırır, əziyyətlərə qatlaşaraq böyüdür, təhsil verir...

Əsərdə Qoca Baxşı xeyirxahlıqla qollarını yetimlərə, aclara, imkansızlara, qovulmuşlara açmış qocaman Odlar yurdunu, Gənc Baxşı isə möhtac, Azərbaycana pənah gətirib, bizim səxavətimizə sığınan, qonaqpərvərliyimizə güvənən erməniləri təmsil edir. Sonda müəllif obrazın - Qoca Baxşının dili ilə üzünü müasir gəncliyə tutaraq müxtəlif vasitələ unutdurulan keçmişimizi, tariximizi ürək ağrısı ilə yada salaraq deyir: "Bir azdan sonra gəncliyimiz bu qara kitabı oxuya bilsə belə, hər halda anlaya bilməyəcəkdir. Çünki oradakı həyat ona yabancı və xəyali bir uydurma kimi görünəcəkdir. Halbuki, burada yazılanlar bir xəyal deyil, hələ dünən yaşadığımız qara bir həqiqətdir".

Müasir dövrdə də Azərbaycan ədəbiyyatında əsərlərin əksər qismində təsvir olunan erməni işğalçılarının millətimiz arasında böyüdüyü, çörəyimizi yeyib, suyumuzu içdiklərinin bir daha şahidi oluruq. Qələmə alınmış həmin əsərlərdə həmin ermənilər məharətlə maskalanmış, "mehriban", "şirindil", "yazıq görkəmli" və s. tipik surətlərdə təsvir olunmuşdur.

Məsələn, müasir dövrün yazıçılarından Nüşabə Məmmədlinin "Zəngulə" romanında Qulamyan vaxtilə azərbaycanlılar arasında yaşamış və "dostluq" əlaqələri saxlamışdır. Eynilə Nigar Qarayevanın "Daş Hasar" romanındakı Xpes Xristofor, Elçin Mehrəliyevin "Doxsanıncı illər" romanındakı Samvel, Əli Əmirlinin " Ölü doğan şəhər" romanındakı Aşot və digər əsərlərdə təsvir olunan erməni obrazları da sıx olaraq Azərbaycanla əlaqəli olmuş, get-gedə öz millətimizin "qoynunda bəslənən ilan" a çevrilmişlər.

Belə əsərlərin adı və canlı şahidi olduğumuz hadisələri sadalamaqla bitməz. Amma artıq "Dayan", "Bitdi" dediyimiz yerə çatmışıq. Biz bu günün 30 il həsrətində olmuşuq, qisasımızın alınacağı günü-ilanı başından vurub əzəcəyimiz günü səbrsizliklə gözləmişik. Və bu gün mən sadə Azərbaycan vətəndaşı olaraq çox qürurluyam, sevincliyəm. Ona görə ki, ilk dəfədir , tarixi oxumuram, məhz onu yaşayıram. Bu şərəfi bizə yaşadan ordumuza eşq olsun! Onun sayəsində, onun əzmi sayəsində bizim öz Qələbə günümüz olacaq. Təsəvvür edirsinizmi? Milli Qələbə günümüz. Əlimizdə bayraq Milli Paradımıza tamaşaya gedəcəyik. Kişilər Günü olacaq həmin gün. Qadınlarımız kişilərimizi təbrik edəcək. Qalib Azərbaycan kişisi də təbrikləri qürurla qəbul edəcək.

**Fatimə TAĞIYEVA,**
**Qəbələ şəhəri.**

# Qafqaza sülh gətirən ordu

Bolşevik Rusiyasının I dünya Müharibəsində məğlubiyyətindən sonra Qafqazda yeni bir şərait yarandı. Regionda anarxiya hökm sürürdü. Geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı dəstələri də Cənubi Qafqaza gəldilər. Rusiya ordu hissələri silahlarını ermənilərə verdi. Ermənilər hələ buna qədər Anadoluda dinc türk-müsəlman əhaliyə qarşı törətdikləri qırğınları bu dəfə Borçalıda, İrəvan quberniyasında, cənubi Azərbaycan və indiki Azərbaycan Respublikası ərazisində törətdilər. Azərbaycanlıların ordusu yox idi. Bu da səbəbsiz deyildi. Çünki çarizm türk və müsəlman olduqları üçün etibar etmədiyindən azərbaycanlıları hərbi xidmətə çağırmırdı.. Yalnız könüllülərdən ibarət "Vəhşi diviziya" var idi.

Çar Rusiyası dövründə "Vəhşi diviziya" adlanan keçmiş Tatar Süvari Alayının əsgərlərindən formalaşdırılmış beş minlik əlahiddə Azərbaycan hərbi korpusu türk ordusunun beşinci, doqquzuncu və on beşinci Çanakkala alayları bazasında Qafqaz İslam Ordusu yaradıldı, onun komandanı Nuru paşa təyin edildi.

Türk ordusunun Qafqaz hərəkatının hüquqi-siyasi təməllərini Batum müqaviləsi təşkil edirdi. Müqavilənin 4-cü maddəsinə görə əgər Azərbaycan daxili qayda-qanunu və təhlükəsizliyi təmin etmək üçün müraciət edərdisə, Osmanlı dövləti bu yardımı göstərməli idi. Azərbaycan tərəfi o zaman belə bir yardım üçün müraciət etmişdi.

Türk ordusunun yürüşünün mənəvi əsasları var idi. Dünya türkləri Osmanlı dövlətinə xilaskar kimi baxırdılar.

1920-ci ilin aprel ayında XI Qızıl ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Aprelin 26-dan 27-nə keçən gecə həmin ordu hissələri ölkəmizin ərazisinə daxil oldu və Bakıya doğru irəliləməyə başladı. 27 aprel 1920-ci ildə gündüz saat 12-də hakimiyyətin təhvil verilməsi haqqında Azərbaycan Parlamentinə ultimatum verildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi.

Bundan sonra Azərbaycan xalqının taleyinə 70 ildən çox bir müddətdə Sovetlər Birliyinin tərkibində azadlıq və müstəqillik yolunda çox çətin və əzablı mübarizə aparmaq kimi tarixin acı həqiqətləri yazıldı. Sovet dövründə ağır şərtlər altında yaşamasına, SSRİ-də türk düşmənçiliyinin, 30-cu illərin sonlarından-50-ci illərin ortalarınadək sovet-türk münasibətlərində gərginliyin olmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərlərinin məzarlarını qoruyub saxladı, dağılmağa qoymadı, ətraflarına çiçəklər, ağaclar əkdi, onları ziyarətgaha çevirdi.

Nəhayət, xalqımız apardığı mübarizədə verilmiş şəhidlər və qanlar bahasına XX əsrin əvvədlərində itirilmiş müstəqilliyini bərpa etməyə nail oldu. 1991-ci ilin 18 oktyabr tarixində Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi və Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını ümumxalq ifadəsi ilə təsdiqlədi.

Müstəqilliyimizin elə ilk günlərindən ordu quruculuğu ilə bağlı mühüm qərarlar qəbul edilməyə başlandı. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında qanun qəbul edildi. Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir.

Ölkənin müdafiə sənayesi müasir texnologiyalar əsasında durmadan inkişaf edir. Müxtəlif təyinatlı silah-sursatlar, zirehli texnikalar istehsal edilir. Ona görə də Qafqazın ən güclü, modern, hazırlıqlı ordusu hesab edilən Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarını düşmən tapdağından azad etməyə qadirdir. Aprel qələbəsi bunu bir daha təsdiqlədi. 2016-cı ilin aprelin əvvəllərində qalib Azərbaycan Ordusunun vətənpərvər, cəsur əsgər və zabitləri düşmənin basqınının qarşısını əks-həmlə əməliyyatı keçirərək aldı və 2 min hektar ərazini işğaldan azad etdi. Mühüm əhəmiyyətli yüksəkliklərə qəhrəman hərbçilərimizin rəşadəti sayəsində üçrəngli Azərbaycan bayrağı sancıldı. Lələtəpə yüksəkliyi azad edilməklə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdış bərpa edildi. Bu il İyulun 12-də müxtəlif çaplı silahlardan və artilleriya qurğularından istifadə etməklə Ermənistan silahlı qüvvələrinin mövqelərimizə hücum etməsi ilə başlayan Tovuz əməliyyatı altı gün davam etdi və düşmən heç bir uğur qazanmadan yenə əvvəlki mövqelərinə çəkilməyə məcbur edildi. Bu gün bir aydan artıqdır ki, Qarabağın işğaldan azad edilməsi uğrunda başlanan Vətən Müharibəsi davam edir. 27 sentyabrda Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində düşmənin hücumuna əks həmlə ilə cavab verən müzəffər ordumuz müharibənin elə ilk günündəcə Azərbaycan Silahlı Qüvvələri uğurlu hərbi əməliyyatlarla 27 ildir düşmən tapdağı altında qalan bir sıra yaşayış məntəqələrimizi azad etdi. Sonrakı günlərdə də bu uğurların davamı gəldi və ordumuz «Qafqaza sülh gətirən ordu» missiyasını bu gün də uğurla həyata keçirir.

Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, rayonlarının ərazilərinin bir qismi düşmən tapdağından xilas edildi. Artıq 170-dən çox yaşayış məntəqəmiz Ordumuzun nəzarətindədir. Qələbə çox yaxındadır. Bütün Azərbaycan xalqı inanır ki, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan Vətən müharibəsi tezliklə rəşadətli ordumuzun tam və qəti qələbəsi ilə yekunlaşacaq, Azərbaycanın üçrəngli bayrağı Xankəndində, Şuşada və işğaldan azad olunan bütün Qarabağ torpaqlarında dalğalanacaq.

Yaşasın Azərbaycan!
Qarabağ Azərbaycandır!

**Bəxtiyar QASIMOV,**
**Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin hərbi rəhbəri.**

# Şanlı Azərbaycanım

Azərbaycan millətinin səbri çox genişdir, bunu hamı bilir. Amma buna baxmayaraq, səbrin də bir sonu var.

Bütün Azərbaycanın, eləcə də Qəbələnin fəxri və fəxarəti olan general mayorumuz olan Polad Həşimovun şəhidliyindən üç ay sonra Azərbaycan tam gücü və qüvvəsi nəticəsində ayağa qalxdı. Kaş uğrunda canını verdiyin bu torpaqların alınmasında sən də olaydın. Görərdin ki milli liderimizin - İlham Əliyevin, rəşadətli və qüdrətli Azərbaycanın çox zəngin silahlı ordusu nələrə qadir oldu ki, Suqovuşanı,Düdükçüni, Edilşəni, Süleymanlını, Əfəndiləri, Dədəlini, Səybəyi, Çıraqlını bütövlükdə Füzulini aldılar. Otuz il bundan öncə cinayətkar Ermənistan və onun başında duran başsız Paşinyan və özü kimi başsız ətrafındakılar tərəfindən Xocalı soyqırımı faciəsi yaşandı. Daha otuz il bundan sonra nə oldu? Torpaqlarımızın azadlığı və geri qaytarılması üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı cənab İlham Əliyev qismən səfərbərlik elan etdi. Və bundan sonra Azərbaycanın müdafiəsi üçün nə qədər könüllü qeydiyyata alındı. Uduzmaqda olan Paşinyan dəfələrlə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni atəşə məruz qoyur. Paşinyan və onun iradəsi zəif olan özü kimi qorxub qaçan əsgərləri bizim Polad kimi bərk, Mübariz kimi mətin döyüşçüləri olan müzəffər və rəşadətli ordumuz qarşısında çox acizdir.

Azərbaycan həmişə cənnətməkan olmuşdur. Həmişə uca olmusan, yenə də uca ol, başın göylərə çatsın, artsın şöhrətin, şanın mənim Azərbaycanım!

**Mələhət SEYİDOVA,**
**Qəbələ sakini.**